# İdrak maraqları təlimin mühüm vasitəsi kim

**Rəna Nüsrəddin qızı Cəbrayılova**
*ADPU-nun Pedaqoji psixologiya kafedrasının baş müəllimi*
**E-mail:** r.jabrailova@rambler.ru

**Rəyçilər:** psixol.ü.f.d., dos. M.C. İsmayılova,
psixol.ü.f.d. R.N. Mirzəyev

**Açar sözlər:** idrak maraqları, motivlər, idraki fəallıq, idraki müstəqillik, təlim metodları
**Ключевые слова:** когнитивные интересы, мотивы, познавательная деятельность, когнитивная независимость, методы обучения
**Key words:** cognitive interests, motifs, cognitive activity, cognitive independence, training methods

İdrak maraqlarının formalaşması problemi və onun həlli bütün təhsil sisteminin təkmilləşdirilməsindən asılı olaraq mühüm əhəmiyyət kəsb edir. Şagirdlərin arzu və qabiliyyətlərinin müəllimin müdaxiləsi olmadan müstəqil şəkildə inkişafı məktəbin bütün təlim mərhələsində üstünlük təşkil edir.

İdrak maraqları kiçik yaşlı məktəblilərin mühüm təlim metodlarından biridir. Sistematik, məqsədyönlü tərbiyə fəaliyyətinin təşkili nəticəsində idrak maraqları şagird şəxsiyyətinin davamlı xassələrindən biri olub onun inkişafına böyük təsir göstərir. V.İ.İvanov və V.N.Myasişev idrak maraqlarını insanın gerçəkliyə aktiv idraki münasibəti kimi şərh etmişlər.

Şagirdlər ətraf aləmi dərk etməklə öz tələbatlarının ödənilməsindən məmnunluq hissi keçirir ki, bu onların fəallığını artırır, onları əşyaların xassə və keyfiyyətlərini aşkar etmələrinə istiqamətləndrir. Odur ki, idrak maraqları inkişafın ilkin mərhələsi kimi özünü təzahür etdirir. İdrak maraqlarının inkişafı təlimə müsbət münasibətin əsasını qoymuş olur.

Q.İ.Şukina göstərirdi ki, şəxsiyyətin idrak fəallığının və idrak marağının formalaşması qarşılıqlı proses kimi bir-birini şərtləndirir (4). İdrak maraqları idrak fəallığını əmələ gətirir, öz növbəsində idraki fəallıq da idrak marağını dərinləşdirir və möhkəmləndirir. İdrak tələbatları idrak marağının əsas hissəsidir. İdrak maraqları uşaqların idraki fəaliyyəti ilə sıx bağlı olub onların inkişafında mühüm rol oynayır. İdrak maraqları şəxsiyyətin inkişafını şərtləndirir və idraki fəallığın hərəkətverici qüvvəsinə çevrilir.

Məlumdur ki, idrak maraqları təlim fəaliyyətində elmi biliklərin əldə edilməsinə yönəldilir. İdrak maraqlarının yaranması ilk növbədə şagirdin inkişaf səviyyəsindən, onun bilik və təcrübəsindən, digər tərəfdən isə materialların ötürülməsi üsullarından asılıdır. İdrak maraqlarının xüsusiyyətləri sadəcə olaraq əşyalarla tanışlıq deyil, həm də burada obyektləri dərketmə prosesinin özüdür ki, o hadisələrin mahiyyətini açmağa yönəldilmiş cəhdlə, elmi əsaslarla müəyyən edilmiş biliklərə, nəzəriyyələrə yiyələnmək arzusu, onları dərindən öyrənmək səyi ilə xarakterizə edilir (1, s. 11).

Şüurlu idrak maraqları təlim və tərbiyə prosesində məqsədyönlü istiqamətdə formalaşır. Burada məqsəd şagirdlərə bilikləri əldə edib ondan istifadə etmələrində idraki təlim fəaliyyətinin və idrak maraqlarının uğurlu formalaşdırmalarına kömək etməkdir. Təlim prosesində ən mühüm və vacib şərt odur ki, şagirdlər şüurlu olaraq məqsədyönlü şəkildə təlim

fəaliyyətinin əhəmiyyətini və dəyərini dərk etsinlər.

İdrak maraqlarının formalaşması dərəcəsini şagirdlərin davranışındakı bəzi təzahürlərlə mühakimə yürütmək olar:

* şagirdlərdə fikri fəallıq onların bildikləri suallarda təzahür edir ki, bu da onun maddi aləmdəki əşya və hadisələrin mahiyyətini öyrənmək məqsədilə yaranan suallara cavab tapmaq ;üçün özünün daxili tələbatını ödəmək

* şagirdlərin müstəqil cəhdi ilə öyrənilən sualları müzakirə etmək və həm- yaşıdlarının ;cavablarını da əlavə etmək

* təqdim olunmuş sualların və ya mövzuların uzun müddətə öyrənilməsi.

İstənilən hallarda təzahür edən idrak maraqları çoxobrazlıdır. Təlim fəaliyyətinin strukturu davamlı idrak maraqlarının formalaşması üçün çoxlu sayda imkanlara malikdir. Məlumdur ki, kiçik yaşlı məktəblilər özlərinin şəxsi həyatında biliklərdən praktik şəkildə istifadə etmək imkanlarından həmişə yayınırlar. Şagirdlərin idrak maraqlarının predmeti odur ki, ətraf aləm haqqında yeni biliklər, məlumatlar əldə etsinlər, həmin məlumatlar onlar üçün yeni, yəni onları üçün naməlum olsun, onları təəccübləndirsin.

Təlim materiallarının məzmunu şagirdlər üçün maraqlı olmaya da bilər. Belə hallarda idrak maraqlarının stimulu qismində təlim prosesinin özü mühüm rol oynayır. Uşaqlarda oxumağa maraq yaratmaq üçün onların idraki fəaliyyətlə məşğul olub tələbatlarını inkişaf etdirmək zəruridir. Təlim prosesində şagird onu cəlb edən, maraqlandıran tərəfləri tapmağa cəhd göstərməlidir. Məktəbdə hər bir şagirdin aktiv fəaliyyətini təmin edən təlimin oyun formaları xüsusi rol oynayır. Bu oyun forması şagirdlərin təlim əməyinə fərdi məsuliyyətini və avtoritetini yüksəldir.

Təlimin oyun forması biliklərin mənimsənilməsinin bütün səviyyələrindən istifadə etməyə imkan verir. Xüsusilə də başlıca məqsəd olan –yaradıcı fəaliyyəti inkişaf etdirir. Şagirdlərin ümumi inkişafının və şəxsiyyətinin formalaşması üçün idrak fəaliyyətinin əhəmiyyətini qiymətləndirməmək mümkün deyildir. Bu da xüsusilə kiçik məktəb yaş dövrünə aiddir.

Məhz bu dövrdə şagirdlərin biliklərə yiyələnmələrinin təməli qoyulur. Təlim şagirdlərin fəal mövqeyindən çox asılıdır. Əgər təlim fəaliyyəti şagirdlərin müəllimlə əməkdaşlığı əsasında qurulursa o həmişə müsbət nəticələr verəcəkdir. Təlim məşğələlərinin uşaqlarla birgə fəaliyyətdə aparılması zamanı müəllim hər bir şagirdin ilk növbədə idrak fəallığının səviyyəsini öyrənməlidir.

İdrak fəallığının yüksəlməsi üçün müəllim uşaqların idrak maraqlarını stimullaşdıran şəxsi üsullar müəyyən etmişdir. Məsələn, şagirdlərin idrak fəallığının yüksəlməsi üçün Q.İ.Şukina idrak maraqlarını stimullaşdırmağın üç üsulunu müəyyən etmişdir:

1) materialın məzmununda dəyişikliklərin aparılması və müasir uğurları nümayiş etdirməkdən istifadə etmək;

2) şagirdlərin idrak fəallığının təşkilinə kömək etmək məqsədi ilə bir çox üsullardan istifadə oluna bilər: a/ müstəqil işlərin çoxobrazlı formalarından istifadə; b/ problemli tapşırıqların qoyuluşu, axtarıcılıq tələb edən məsələləri həlli; c/ şagirdlərin emosional-iradi sferasını və onun intellektual-idraki fəaliyyətini aktivləşdirən yaradıcı işlərin yerinə yetirilməsi;

3) idrak maraqlarının uğurlu formalaşmasının, təlim prosesinin emosional, intellektual və kommunikativ planda təhsilalanlar arasında qarşılıqlı münasibət- lərindən asılı olması (2).

İ.A.Zayseva idrak maraqlarını müəllimlə şagirdlər arasındakı aktiv qarşılıqlı fəaliyyət mövqeyi baxımından nəzərdən keçirir. Çünki burada idrak maraqlarının mövcudluğu və stimullaşdırılması həyata keçirilir (2). Alim belə hesab edir ki, təlim materiallarına maraq

şagirdlərin öz materiallarına müqaviməti ilə baş verir.

İdrak maraqları şəxsiyyətin inteqral təhsilidir. O, ümumi fenomen kimi mürəkkəb struktura malikdir. Həmin strukturda insanın ətraf aləmlə obyektiv və subyektiv əlaqələri münasibətdə ifadə olunur. İ.Q.Şukinanın fikrincə, idrak maraqları şəxsiyyətin dərketmə sahəsinə, onun əşyavi tərəfinə və biliklərə yiyələnmə prosesinin özünə seçici istiqamətidir (5, s. 14).

Beləliklə, idrak maraqları pedaqoji hadisə kimi bir-biri ilə qarşılıqlı surətdə bağlı olan ikitərəfli prosesdir, bir tərəfdən o şagirdin özünütəşkilinin və özünüreallaşdırmasının forması, digər tərəfdən isə şagirdlərin idrak fəaliyyətinin təşkilində müəllimin xüsusi səyinin nəticəsidir. İdrak fəallığının inkişafı yeni təəssüratlara tələbatdan irəli gəlir ki, bu da hər bir insana anadan olan günündən məxsusdur. Kiçik məktəb yaşı dövründə sistematik iş şəraitində şagirdlərin idrak fəallığının əsasında idrak maraqları yaranır və formalaşır ki, nəticədə fasiləsiz təhsil prosesinin əsası qoyulur.

S.L.Rubinşteynin fikrincə, idrak maraqları ikitərəfli xarakter daşıyan mürəkkəb münasibətdir. Burada obyekt, hadisələr, elm və ya təlim sahələri vahid halda şəxsiyyətin özünə seçici istiqamətdir. S.L.Rubinşteyn qeyd edir ki, "maraq ikitərəfli münasibət xarakterini qəbul edir. Əgər məni hər hansı bir əşya maraqlandırırsa, deməli, həmin əşya mənim üçün maraqlıdır (3, s. 435).

İdrak maraqlarının xarakterik cəhətlərindən biri ondan ibarətdir ki, onun təsiri altında insan bütün günü axtarır, onu maraqlandıran əşyaların yeni tərəflərini araşdırmağa, münasibət və əlaqələrini yaratmağa çalışır. Yaranan suallara cavabların axtarışında insanda əqli gərginlik, onu maraqlandıran sualların həlli, idraki tapşırıqların nəticələrindən nigarançılıq yaranır.

İdrak maraqlarının digər xarakterik xüsusiyyətlərindən biri onun iradi istiqamətlənməsidir. İdrak maraqları passiv xarakter daşıyır. O, idrakın inkişafının yüksək mərhələsində fəaldır. İdrak maraqları şəxsiyyətin məhsuldar fəaliyyətində onun iradi cəhdi ilə bağlıdır. O, təkcə fikir və hisslərlə deyil, həm də praktik vəzifələrin, idrak məsələlərinin həllində məqsədyönlü, fəal axtarışdır. Odur ki, o, şəxsiyyətin dəyərli keyfiyyətlərindən olub inkişafda mühüm stimuldur.

İdrak maraqları təlim və tərbiyənin müxtəlif tərəflərinə təsir edə bilir. Çox vaxt idrak maraqları psixi proseslərin xarici stimulu, şagirdlərin idraki fəaliyyətinin formalaşdırılması vasitəsi, o cümlədən müəllimin "alət" effekti kimi nəzərdən keçirilir. Bu "alət" təlim prosesinin canlandırılmasına zəmin yaradır.

Təlim fəaliyyətində idraki maraq özünüdərkin motivi kimi təzahür edir. O əvvəlcə motiv, sonra isə idraki istiqamətə yönəlir. İstiqamətlənmə əşyanı, özünüdərk prosesini və onun məzmununu genişləndirir.

İdrak maraqları şəxsiyyətin özünün daxili prosesinin formalaşması və obyektiv şərtlərin təzahürləri ilə xarakterizə olunur. Təlim prosesində şagirdləri təlimin elə tərəfləri cəlb edə bilər ki, onlar müəllim şəxsiyyətinin cazibəsi, təcrübəsi ilə sıx bağlı olsun. Bəzən müəllimlər dərsi canlı və maraqlı aparmaq üçün çox vaxt idraki fəaliyyətin daxili proseslərinə diqqət yetirmirlər ki, bu da şagirdlərin dərsə olan marağının azalmasına və onların passivliyinə səbəb olur.

Kiçik yaşlı məktəblilərin idraki maraqları onların idraki fəallığının təzahürü ilə sıx bağlıdır. İdraki maraqların göstəriciləri onun inkişafının stimulu kimi təzahür edir. Məktəblilərin istənilən fəaliyyəti idraki maraqların stimulu və mənbəyi ola bilər. İdrak maraqlarını psixoloq və pedaqoqlar müxtəlif tərəflərdən öyrənirlər.

Onlar idrak marağını tərbiyə və inkişafın ümumi problemlərinin mühüm hissəsi kimi tədqiq edirlər. İdrak maraqları ətrafdakı əşya və hadisələrə seçici istiqamətdir. Təlim fəaliyyətini fəallaşdırmaq üçün ilk növbədə idrak maraqlarını motiv, şəxsiyyətin mühüm cəhəti və təlimin vasitəsi kimi sistematik olaraq möhkəmləndirmək və inkişaf etdirmək zəruridir.

**Məqalənin aktuallığı.** İdrak maraqları şəxsiyyətin özünün daxili prosesinin formalaşması və obyektiv şərtlərin təzahürləri ilə xarakterizə olunur. Təlim fəaliyyətini fəallaşdırmaq üçün ilk növbədə idrak maraqlarını motiv, şəxsiyyətin mühüm cəhəti və təlimin vasitəsi kimi sistematik olaraq möhkəmləndirmək və inkişaf etdirmək zəruridir.

**Məqalənin elmi yeniliyi.** İdrak maraqları təlim fəaliyyətində elmi biliklərin əldə edilməsinə yönəldilir. İdrak maraqlarının yaranması ilk növbədə şagirdin inkişaf səviyyəsindən, onun bilik və təcrübəsindən, digər tərəfdən isə materialların ötürülməsi üsullarından asılıdır. İdrak maraqlarını stimullaşdırmağın üsulları araşdırılmışdır.

**Məqalənin praktik əhəmiyyəti və tətbiqi.** Məqalədən ali və orta ixtisas məktəblərinin müəllimləri, tələbələr, magistrantlar və doktorantlar istifadə edə bilərlər.

## Ədəbiyyat

1. Кузнецова,А.А. Познавательный интерес. Условия его развития / Кузнецова, А.А., Чукавова С. В., Кузнецов В. Н. // Биология в школе. -1996. № 2.-С. 29-31.

2. Зайцева И.А. Формирование познавательного интереса к учению как способ развития креативных способностей личности. Ноябрьск, 2005.

3. Рубинштейн, С.Л. Основы общей психологии [Текст]: /С.Л.Рубинштейн.- Спб.: Издательство «Питер», 2015.

4. Щукина Г.И. Педагогические проблемы формирования познавательных интересов учащихся. М.: Педагогика, 2008.

5. Щукина Г.И. Активизация познавательной деятельности учащихся в учебном процессе. М.: Просвещение, 2009.

**Р.Н. Джабраилова**

## Познавательные интересы как важные средства обучения

## Резюме

В научной статье показано, что позитивные интересы являются одним из устойчивых свойств личности учащихся и оказывают большое влияние на его развитие. В статье последовательно раскрывается стимуляции свойств, характерные особенности познавательных интересов в учебной деятельности. Автор правильно отмечает, что необходимо систематически укреплять и развивать позитивные интересы как средство преподавания, чтобы активизировать обучение.

**R.N. Jabrayilova**

## Cognitive interests as an important means of training

## Summary

The scientific article shows that positive interests are one of the sustainable properties of the personality of students and have a great influence on its development. The article consistently discloses the stimulation of properties, characteristic features of cognitive interests in educational activities. The author correctly notes that it is necessary to systematically strengthen and develop positive interests as a means of teaching to intensify learning.

**Redaksiyaya daxil olub:** 06.09.2021